**Bu günlər Gülnaz xanım ömrünün fərəhli anlarını yaşayır. Onun əməyi qiymətləndirilmiş və "İlin kitabxanaçısı" adına layiq görülmüşdür.**

**Etiraf etmək lazımdır ki, G.İsgəndərovanın zəhməti daha yüksək dəyərləndirilməyə layiqdir...**



# İlin kitabxanaçısı

**Məlumat üçün bildiririk ki, İsgəndərova Gülnaz Ənvər qızı 1959-cu ildə Goranboy rayonunda anadan olub. Bakı Mədəni-Maarif Texnikumu kitabxanaçılıq fakültəsinin məzunudur.**

Gülnaz xanım əmək fəaliyyətinə 1983-cü ildə Gəncə Müəllimlər evində kitabxana müdiri kimi başlayıb. 1985-ci ildən Gəncə şəhər MKS-in 23 saylı filialında böyük kitabxanaçı, 1987-ci ildən mərkəzi şəhər kitabxanasının komplektləşdirmə və kitabişləmə şöbəsində baş redaktor, 1996-cı ildən həmin şöbənin müdiri vəzifəsində çalışır. Kitabxana Yerli Həmkarlar Təşkilatının sədridir. İşlədiyi müddət ərzində intizamlılığı, işgüzarlığı, ictimai fəallığı, bilik və bacarığı, sənətinə məhəbbəti ilə fərqlənmiş, kitabxana kollektivinin dərin hörmət və ehtiramını qazanmışdır. Öz sənətinin vurğunu olan Gülnaz xanım daim kitabxana işi sahəsində yenilikləri izləyərək öyrənir və öyrəndiklərini işinə tətbiq etməyə çalışır.

Peşə biliklərini artırmaq və işini müasir tələblər səviyyəsində qurmaq məqsədilə o, respublika və beynəlxalq səviyyədə təşkil olunan neçə-neçə kurs və treninqlərdə iştirak edərək mütəxəssis kimi püxtələşmişdir.

Kitabxananın avtomatlaşdırılması işində yaxından iştirak edir. Rəhbərlik etdiyi komplektləşdirmə və kitabişləmə şöbəsində 2008-ci ildə "İRBİS-64" elektron proqram tətbiq olunmuşdur. Hazırda proqramın katalizator bölməsində işlərini müvəffəqiyyətlə yerinə yetirir.

Zəngin kitabxana biliyinə malik olan Gülnaz İsgəndərova Gəncə şəhər MKS-in kitabxanaçılarının yaxın köməkçisi və məsləhətçisidir. O, həmçinin şəhərin ali məktəblərinin və Daşkəsən, Gədəbəy, Şəmkir, Qazax, Tovuz, Samux, Göy-göl rayonlarının kitabxana işçilərinə yeni texnologiyaları mənimsəməkdə və ənənəvi kitabxana işlərinin metodiki baxımdan düzgün aparılmasında yaxından köməklik göstərir.

Bütün bunlarla yanaşı, kitabxanada keçirilən kitab festivallarında, kitab bayramlarının təşkilində, müxtəlif miqyaslı tədbirlərdə Gülnaz xanımın xüsusi xidmətləri vardır.

Öz işinə həmişə tələbkarlıqla və peşəkarcasına yanaşmağı bacaran Gülnaz xanım bu gün də işini günün tələbləri səviyyəsində, Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" istiqamətində qurmağa səy göstərir.

Kitabxana işi sahəsində qabaqcıl və səmərəli fəaliyyətinə görə Gülnaz İsgəndərova 2004-cü ildə Gəncə Şəhər Mədəniyyət İdarəsinin, 2008-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin, 2009-cu ildə isə Azərbaycan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri fərmanları ilə təltif edilib.

Kitabxanaların müasir inkişafı istiqamətində yorulmaq bilmədən həvəs və səylə çalışan Gülnaz xanım bu il daha böyük bir uğura - kitabxanaçıların peşə ustalığı üzrə keçirilən "İlin Kitabxanaçısı - 2010" respublika müsabiqəsinin qalibi adını qazanmağa nail oldu.

**E. HƏSƏNQIZI**

**P.S.** Gülnaz xanımı qazandığı uğurlar, əldə etdiyi nailiyyətlər və "İlin kitabxanaçısı" adı alması münasibətilə biz də çoxsaylı oxucularımız və yaradıcı kollektivimiz adından təbrik edir, ona möhkəm cansağlığı, gərəkli işlərində yeni-yeni nailiyyətlər arzulayırıq!